Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# İranda xarici media ilə ünsiyyətə görə cinayət məsuliyyəti gəlir

5 dəqiqə öncə




Yəlda Moayeri Tehrandan çəkdiyi foto

İran parlamenti hakimiyyətin düşmən saydığı media qurumları ilə ünsiyyətə görə cinayət məsuliyyəti nəzərdə tutan qanun layihəsini təsdiqləyib. Söhbət ABŞ və İsraildə qeydiyyatdan keçmiş və ya bu ölkələrdən maliyyə alan media qurumlarından gedir. “Reuters” bu məlumatı İranın “Şərq” nəşrinə istinadla yayıb.

Qanun layihəsini Mühafizlər Şurası rəsmən təsdiqləməlidir. Sənəddə “düşmən” media qurumlarına müsahibə verməyə görə iki ilədək həbs cəzası nəzərdə tutulur.

Layihədə İran vətəndaşlarının digər xarici media qurumları ilə ünsiyyət imkanları da məhdudlaşdırılır. Xarici mediadan müsahibə təklifi barədə Təhlükəsizlik Nazirliyinə məlumat vermək tələb olunacaq. Xarici səfirliklər və xarici qurum nümayəndələri ilə

ünsiyyət üçün İran Xarici İşlər Nazirliyindən icazə almaq lazım gələcək. Bu qaydanın pozulması cərimələrə və digər cəzalara səbəb olacaq. Sənəddə xarici ölkələr və qurumlarla biznes və ya elmi əməkdaşlıq qaydalarının sərtləşdirilməsini nəzərdə tutur.

İranda "düşmən dövlətlər"lə əməkdaşlıq qadağandır, bu qanun layihəsi həmin qaydaları daha da sərtləşdirir.

İranlı fotojurnalist **Yəlda Moayeri** bu yaxınlarda qiyabi olaraq 15 il həbs cəzasına məhkum edilib. O, xarici mediaya müsahibələr verməsi, onlara ABŞ və İsrailin İrana zərbələrinin nəticələrini əks etdirən fotolar göndərməsi ilə əlaqədar "sionist rejim və ABŞ-nin maraqları naminə fəaliyyət göstərmək"də ittiham olunub.

İddia olunan pozuntuları Təhlükəsizlik Nazirliyi və İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) kəşfiyyat strukturu araşdıracaq.

İran müstəqil jurnalistika və informasiyaya çıxış onsuz da sərt şəkildə məhdudlaşdırıb. "Sərhədsiz Reportyorlar" təşkilatının 2026-cı il Dünya Mətbuat Azadlığı İndeksində İran 180 ölkə arasında 177-ci yerdədir. Təşkilat İranda jurnalistlərin həbsini, izlənilməsini, təzyiqlərə məruz qalmasını, senzura və jurnalistlərə verilən ağır həbs cəzalarını səbəblər kimi sadalayır.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur